**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 85**

**Bakı şəhəri, 9 mart 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 fevral tarixli 53 nömrəli qərarı ilə təsdiq edilmiş “Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə**

“Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3492 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 fevral tarixli 53 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 131; 2014, № 10, maddə 1305) ilə təsdiq edilmiş “Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənddə “Elmi tədqiqat idarələrinin” sözləri “Elmi müəssisə və təşkilatların” sözləri ilə əvəz edilsin.
2. 6.4-cü bənddə “təşkilatlar” sözü “elmi müəssisə və təşkilatlar” sözləri ilə əvəz edilsin.
3. 6.10-cu bənddə “elmi tədqiqat idarələri” sözləri “elmi müəssisə və təşkilatlar” sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**